# TƏBİƏTİMİZƏ QARŞI TÖRƏDİLƏN EKOLOJİ TERROR

**Aysel Quliyeva**

*Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında*
*Milli Hidrometeorologiya Xidməti, Bakı*
*aysel.quliyeva@eco.gov.az*

Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanda ətraf mühitin qorunması ilə bağlı ekoloji tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayıb.

30 illik işğal dövründə Ermənistan tərəfindən Qarabağdakı nəinki tarixi, mədəni-dini abidələrimiz, infrastrukturumuz, hətta bu yerlərin hər daşı, torpağı, ümumilikdə təbiəti də erməni terroruna məruz qalmış, tamamilə məhv edilmişdir. Əsasən Cəbrayıl, Zəngilan və Qubadlı rayonları ərazisində mövcud olan əkin sahələrinin suvarılması, vəhşi heyvanların sudan istifadəsi məqsədilə yaradılan sututarlar yararsız vəziyyətə salınmışdır, həmçinin mövcud olan kəhriz və bulaqlar məhv edilmiş, nəticədə yerüstü suların həcmi azalmışdır. Cəbrayıl rayonu ərazisində bir neçə təbii xammal ehtiyatı olan yataqlar istismar edilmiş, tut bağları yandırılaraq məhv edilmişdir.

Zəngilan rayonu ərazisində yerləşən əhəngdaşı yatağı istismar edilmiş, Vənədli kəndi yaxınlığında yerləşən Araz palıdı meşəsi, Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə (4 iyul 1974-cü il tarixində) yaradılmış sahəsi 107 hektar olan Bəsitçay Dövlət Təbiət Qoruğunun meşə ilə örtülü sahəsinin yarıdan çoxu, 42 hektardan çox hissəsi məhv edilmişdir. Başlanğıcını Ermənistan ərazisindən götürən və Zəngilan rayonu ərazisindən keçərək Araz çayına tökülən Oxçuçay Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilərək ordakı flora və faunanın məhvinə səbəb olmuşdur. İşğaldan azad olunduqdan sonra Oxçuçayda aparılmış monitorinqlər zamanı çayın suyunun boz və sarı rəngdə olması müəyyən edilmiş, suyun çirklənməsi səbəbindən ordakı balıqların kütləvi məhv

olması aşkar edilmişdir. Oxçuçayın Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına töküldüyünü nəzərə alsaq, onun çirklənməsi Araz çayının su ehtiyatlarının keyfiyyətinə də birbaşa təsir göstərir. Qubadlı rayonu ərazisində ekoloji terror əsasən böyük diametrli Şərq çinarlarının, tut bağlarının oduncağından istismar edilərək sənayedə istifadə edilmişdir. Həkəri çayının sağ və sol sahillərində kilometrlərlə yaşıllıq sahələri törədilmiş yanğınların qurbanı olmuşdur. Həmçinin Qubadlı Dövlət Təbiət Yasaqlığının hektarlarla ərazisi yandırılmışdır. Laçın rayonu ərazisində də böyük diametrli qoz, çinar ağacları ermənilər tərəfindən kəsilmişdir. 2022-ci ildə ərazini tərk edərkən 500 hektara yaxın ardıc ağaclarından ibarət olan meşələri yandıraraq məhv etmişdir. Laçın Dövlət Təbiət Yasaqlığında yerləşən qiymətli qırmızı palıd ağacları da kəsilərək sənayedə istifadə olunmuşdur. İşğaldan sonra aparılmış monitorinqlər zamanı müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına düşmüş bir ədəd ana və iki ədəd bala qonur ayı emənilər tərəfindən quraşdırılmış piyada əleyhinə minaya düşərək tələf olmuşdur. Kəlbəcər rayonunda isə sənaye əhəmiyyətli Söyüdlü (Zod) və Ağduzdağ, Tutxun qızıl yataqları 2020-ci ilə qədər işğalçı rejim tərəfindən talan edilmişdir.

Ermənistanın Qarabağda və işğaldan azad olunmuş digər ərazilərimizdə məqsədli şəkildə törətdiyi ekoloji terrorun zərər və ziyanlarını bərpa etmək üçün biz ərazilərin ətraf mühitini düzəltməli və müxtəlif işlər aparmaqla məhv edilmiş fauna və floranı bərpa etməliyik.